IV Parlamentar Debatın motion-u artıq elan edilir!

Aşağıda sizə ölkədəki problem verilmişdir. ***Problem hissəsi sizin motionunuz DEYİL*!** Debat çərçivəsində kazus üzərindən həll verməyəcəksiniz. Bu sadəcə sizə vəziyyətin təsəvvürü üçün verilmişdir. Tələb olunur ki, motiona fokuslanasınız.

Problem:

"Klinikanın gözləmə otağında Ayla və Kənan artıq doqquzuncu ildir ki, eyni cavabı eşidirdilər: təbii yolla övlad sahibi olmaq mümkün deyil. Nəhayət, Aylanının əmisi qızı Aysel könüllü olaraq embrionu daşımağa razılıq verdi. Lakin həkim təəssüflə bildirdi ki, ölkədə bu proses üçün konkret qayda yoxdur. Ayla və Kənan yeni bir məsələ ilə üzləşdilər: övladlarının gələcəyi, Aylanın hüquqları və öz valideynlik statusları qanunun cavabsız buraxdığı bir boşluqda qalırdı."

Bu sual təkcə Ayla və Kənanın deyil, son illər Azərbaycanda həm övlad sahibi ola bilməyən ailələrin, həm tibb müəssisələrinin, həm də hüquqşünasların və ictimai qurumların müzakirə mövzusuna çevrilmişdir. Surroqat analıq nə açıq şəkildə qanuniləşdirilib, nə də birbaşa qadağan olunub. Ailə Məcəlləsi surroqat analığı nəzərdə tutsa da, ödəniş, tərəflərin statusu və müqavilənin icrası kimi mühüm suallara cavab vermir; prosesi tənzimləməli olan "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi isə illərdir qəbul edilə bilmir. Nəticədə yaranan hüquqi "boz zona" şəraitində surroqat ana, sifarişçi valideynlər və doğulacaq uşaq ardıcıl müdafiədən məhrum qalır, çoxları isə xaricə üz tutmağa məcbur olur.

Bir qrup fikirlərə görə, qadağa və ya boşluq surroqat analığı aradan qaldırmır, sadəcə onu xaricə və qeyri-rəsmi razılaşmalara yönəldir. Bu halda surroqat ana, sifarişçi valideynlər və doğulacaq uşaq hüquqi müdafiəyə malik olmur: razılaşma məcburi icra edilə bilmir, tərəflərin öhdəlikləri müəyyən deyil. Bu mövqeyə görə, dövlətin aydın qayda və nəzarət mexanizmi müəyyən etməsi hər üç tərəfin hüquqlarını qorumağın yeganə yoludur. Əks mövqe isə bu praktikanın qadının bədənini və uşağı kommersiya predmetinə çevirə biləcəyini vurğulayır. Maddi çətinlik içində olan qadının "razılığının" nə dərəcədə azad olduğu sual altındadır və qanunla leqallaşdırma bu riski aradan qaldırmaq əvəzinə, onu rəsmiləşdirə və genişləndirə bilər. Bu fikrə görə, uşağın maraqları və ictimai dəyərlər dövlətin tənzimləməsindən daha çox qadağa ilə qorunur. Xüsusilə də son illərdə Azərbaycanda müxtəlif sosial şəbəkə platformalarında 15,000 AZN və 60,000 AZN arası qiymətlərdə Gürcüstanda surroqat ana olmaq ilə bağlı elanlara minlərlə təklifi məqbul hesab edən, hətta, qəbul edən rəylərin yazılması məsələnin qanuni tənzimlənməsi ehtiyacını kəskinləşdirmişdir.

Beynəlxalq səviyyədə də oxşar dilemmalar yaşanmışdır. Bəzi dövlətlər məhz bu risklərə görə surroqat analığı qadağan etməyi seçmiş, digərləri isə onu müəyyən şərtlər daxilində tənzimləməyi daha məqsədəuyğun hesab etmişdir.

Elmi-tibbi imkanlar genişləndikcə sual daha kəskin dayanır: Dövlət bu sahədə hansı rolu oynamalıdır? Mövcud boşluq qalmalı, yoxsa hüquqi çərçivə müəyyən olunmalıdır?

Məsələ Parlamentdə müzakirəyə çıxarılır.

Motion: *"Bu Palata hesab edir ki, hökumət tərəfindən surroqat analığı leqallaşdıran və tənzimləyən xüsusi qanunvericilik aktı qəbul olunmalıdır."*